

# 15 Sentyabr Bilik Günüdür

## Təhsil bilik, uğurlu gələcək və modernləşmədir

Azərbaycanda aparılan ictimai, iqtisadi və mədəni dəyişikliklər onun müstəqil bir ölkə kimi sürətlə inkişaf etdirilməsinə yönəlmişdir. Dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri gənc nəslin vətənpərvər, bilikli və savadlı, yüksək intellektual potensiala malik yetişdirilməsidir. Son illər ölkəmizin təhsil sistemində aparılan islahatlar məktəblərin infrastrukturunun yaxşılaşdırılması, yenilərinin inşası və əsaslı təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilməsi ilə sıx bağlıdır. Uzun müddətdir ki, Azərbaycanda təhsillə bağlı islahatlar aparılır. Təhsilin bütün pillələrində, o cümlədən ümumi təhsildə köklü dəyişikliklər baş verir. Təhsilin bütün səviyyələrində qlobal dünyanın tələblərinə uyğun standartların, pedaqoji texnologiyaların, idarəetmə və qiymətləndirmə mexanizmlərinin hazırlanması istiqamətində tədbirlər görülür. Ölkəmizin təhsil siyasətinə uyğun olaraq bu işlərin uğurla həyata keçirilməsi, Azərbaycan cəmiyyətinin inkişaf etdirilməsi baxımından daha da təkmilləşdirilməsi hazırkı dövrün ən məsul və ciddi vəzifələrindən hesab edilir. Həmin vəzifələrin reallaşdırılması, həyata keçirilməsi zəruri bir problem kimi gündəmdə dayanır. Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına cavab verən hazırkı səviyyəyə çatması və inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu gün ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər, ümumi, peşə, orta ixtisas və ali təhsil müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedaqoji kadr potensialı öz mənbəyini məhz ulu öndərin rəhbərliyi altında təhsil sahəsində aparılan məqsədyönlü siyasətdən almışdır. Genişmiqyaslı təhsil quruculuğu gələcək inkişafın güclü təməlini yaratmışdır.





Ölkə həyatının müxtəlif sahələrində əldə edilmiş nailiyyətlərin təhlili və gələcəyə istiqamətlənmiş baxışların formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Heç şübhəsiz ki, hər bir xalqın və dövlətin inkişafı, onun gələcəyinin sağlam təməllər üzərində qurulması təhsil sistemində əldə edilmiş nailiyyətlərdən asılıdır. Tədqiqatlar göstərir ki, müasir dövrdə təhsilin məzmununun yeniləşməsi cəmiyyətin özünün inkişafı ilə bilavasitə bağlıdır. Bu gün səriştə əsaslı təhsilin məzmununun formalaşdırılması və inkişaf etdirilməsi vacibdir. Məhz belə bir şəraitdə müasir dövrün tələblərinə cavab verən vətəndaşın yetişdirilməsi imkanları genişlənir. Təcrübə göstərir ki, məhz belə şəxsiyyətlərdə müstəqillik, demokratiklik, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətləri daha çox inkişaf edir. Azərbaycanda təhsilin əsas məqsədi öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquq və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Dövlət başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yeni məktəb binalarının tikintisinə, mövcud məktəblər üçün əlavə korpusların inşasına, onların əsaslı təmirinə, müasir avadanlıqlarla təchizatına, ümumilikdə təhsil infrastrukturunun tam yenilənməsinə göstərdikləri diqqət və qayğının nəticələri göz önündədir.

Son illər müasir texnologiyaya əsaslanan təhsil infrastrukturu yaradılıb, keyfiyyətli insan kapitalının hazırlanması prosesinin mühüm mərhələsi olan məktəbəqədər təhsildə göstəricilərin daha da yaxşılaşdırılması üçün məqsədyönlü addımlar atılıb, pedaqoji heyətin peşəkar inkişafı və motivasiyası diqqət mərkəzində saxlanılıb, elmi-tədqiqat potensialı müasirləşdirilib və tətbiqyönlü tədqiqatların aparılması genişləndirilib. 2021-2022-ci tədris ilinin yekunlarını müsbət qiymətləndirən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, tədris ili pandemiya müddətində və müəyyən fasilədən sonra arası kəsilmədən davamlı olan tədris ili kimi tarixə düşüb. Qeyd edib ki, ikinci yarımilədək yoluxma sayları yüksək idi. Təhsil sisteminin davamlılığının təmin edilməsi bu ilin ən böyük uğuru sayıla bilər. Həmin dövrdə müəllimlər böyük fədakarlıq göstərərək bu işə dəstək oldular. Qeyd edək ki, ölkə başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında "Bilik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında" 21 avqust 2004-cü il tarixli 114 nömrəli Fərmanı ilə 15 sentyabr "Bilik günü" elan edilib və respublikanın bütün təhsil müəssisələrində dərslərin sentyabrın 15-dən başlanması müəyyən olunub. Nazirlikdən, həmçinin bildirilib ki, 1-14 iyun tarixləri yaz fəslinə təsadüf etdiyindən iyun ayında dərslərin keçirilməsi hava şəraiti baxımından çətinlik törətmir. Yəni dərslər sentyabrın 15-i başlayıb, iyunun 14-də bitəcək. Bununla əlaqədar nazir "Ümumi təhsil müəssisələrinin 2022-2023-cü tədris ili üçün tədris planlarının təsdiqi haqqında" əmr imzalayıb.

Bakı şəhəri təhsil işçilərinin Sentyabr Konfransında Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strateji çərçivə"sinə istinad edərək müəyyənləşdirilmiş 4 strateji məqsəd və qarşıda duran hədəflər barədə ətraflı məlumat verib. Bildirib ki, 2021-2022-ci il tədris işçiləri üçün çətin adaptasiya dövrü olsa da, 2022-ci il təhsil islahatları ilə yadda qalacaq. Təhsildə baş verən son proseslər yeni bir mərhələnin başlandığını deməyə əsas verir. Bu il Bakıda 8 yeni məktəb binası tikilib. Onlardan 5-i yeni tədris ilindən fəaliyyətə başlayacaq. Təhsildə əlçatanlıq, bərabərlik, keyfiyyət, səmərəlilik prinsipləri əsas götürülür.

Dövlət başçımız qeyd edir ki, Azərbaycan uğurla inkişaf edən ölkədir. Son illər ərzində biz bütün istiqamətlər üzrə böyük nailiyyətlərə imza atmışıq. Elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün insanlar hazırlıqlı, gənclər bilikli olmalıdırlar. Əgər inkişaf etmiş ölkələrin tarixinə və bu gününə baxsaq, görərik ki, belə ölkələrdə təhsil, texnologiya, elm inkişaf edir. Biz də bu yolla gedirik. Azərbaycanda gənc nəslin bilikli, savadlı, vətənpərvər olması ölkəmizi gücləndirir. Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən islahatlar, baş verən hər bir hadisə ilk növbədə, Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdır. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilmişdir. "Təhsil hər bir dövlətin gələcəyidir. Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə, təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır". Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir.

**Mustafa KAMAL,**
**"Respublika".**